Görüş zamanı Azərbaycanla Yaponiya arasında təhsil sahəsində birgə layihələrinin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Təhsil naziri birgə layihələrin həyata keçirilməsində, xüsusilə də Şəki şəhəri 1 nömrəli Peşə Məktəbinin əsaslı təmiri, maddi-texniki bazasının yenilənməsi işində Yaponiyanın maliyyə yardımını və müvafiq mütəxəssislərinin dəstəyini yüksək qiymətləndirmişdir.

Görüşdə, həmçinin ölkələrimiz arasında təhsil sahəsindəki əməkdaşlığın gələcək istiqamətləri ilə bağlı bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.